**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SEVDA ƏHMƏD qızı MƏMMƏDOVA**

# TOFİQ QULİYEVİN YARADICILIĞINDA MİLLİ XÜSUSİYYƏTLƏR

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | Azərbaycan Respublikasının<br>əməkdar incəsənət xadimi,<br>fəlsəfə elmləri doktoru, professor<br>**Gülnaz Abutalıb qızı Abdullazadə** |
| **Rəsmi opponentlər:** | sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Cəmilə İsmayıl qızı Həsənova**<br><br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor<br>**Zemfira Kəlpəli qızı Abdullayeva** |
| **Aparıcı təşkilat:** | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.<br>“Musiqi tarixi və nəzəriyyəsi” kafedrası. |

Müdafiə «____» aprel 2018-ci ildə saat 14:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» mart 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan musiqi mədəniyyətində yeni yollar açmış, öz musiqi üslubu ilə tanınmış və yaratdığı kamil əsərləri ilə musiqi xəzinəmizi zənginləşdirmiş bəstəkarlarımızdan biri Tofiq Ələkbər oğlu Quliyevdir. Musiqi tariximizin səhifələrində adı əbədi həkk olunmuş böyük bəstəkarın yaradıcılığı daim diqqət mərkəzindədir. Onun əsərləri xalqımızın musiqi həyatının ayrılmaz bir parçasına çevrilmişdir və bütün nəsillərdən olan insanların musiqi zövqünün formalaşmasında mühüm rol oynayır.

T.Quliyev çoxcəhətli yaradıcı fəaliyyətə malik bir sənətkar olmuşdur. O, musiqi mədəniyyətinə bəstəkar, pianoçu, dirijor, bədii rəhbər, folklorşünas, ictimai xadim kimi daxil olmuş və fəaliyyət göstərdiyi hər bir sahədə dərin iz qoymuş, yeni səhifə açmış, öz ənənələrini yaratmışdır. Hər yeni gələn musiqiçi nəslinin Tofiq Quliyevin yaradıcılıq irsinə müraciəti aktuallıq kəsb edir. Onun Azərbaycan musiqi mədəniyyətinə verdiyi töhfələrin tədqiq olunması, milli musiqi irsində müəyyən boşluqların aradan qaldırılması müstəqillik dövründə musiqişünaslıqda aktual olan məsələlərdəndir.

Tofiq Quliyevin yaradıcılığı milli köklərlə, klassik və müasir musiqi ilə üzvi surətdə bağlıdır. O həm bəstəkar, həm də folklorşünas kimi Azərbaycan xalq musiqisinə, muğam sənətinə müraciət etmiş və bu zəngin xəzinədən yaradıcılıqla bəhrələnərək, özünəməxsus bədii üslubunu və qeyri-adi təsir gücünə malik əsərlərini yarada bilmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafı bəstəkar yaradıcılığının xalq musiqisi ilə qarşılıqlı əlaqəsindən qidalanır. Buna görə də T.Quliyevin yaradıcılığı timsalında bu məsələnin öyrənilməsi aktual məsələ kimi qarşıya qoyulur. Bu cəhətdən bəstəkarın yaradıcılığının tədqiqi onun xalq musiqisi və muğam sənəti ilə əlaqəsindən yaranan musiqi dilinin əsas qanunauyğunluqlarını üzə çıxarmağa imkan verir. Həmçinin, bəstəkar yaradıcılığında özünü göstərən müasir musiqiyə və caz sənətinə meyllilik də milli köklərlə üzvi surətdə əlaqədardır. Bu baxımdan bəstəkar Tofiq Quliyevin yaradıcılığının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Tofiq Quliyevin yaradıcılığı bir sıra tədqiqatlarda araşdırılmış, onun əldə etdiyi nailiyyətlər, ayrı-ayrı əsərləri ilə bağlı elmi təhlillər dissertasiyalarda, monoqrafiyalarda və elmi-publisistik məqalələrdə öz əksini tapmışdır.

T.Quliyevin yaradıcılığının öyrənilməsində musiqişünas-alimlər Lidiya Məlikovanın, Zərifə Bakıxanovanın, Nailə Mehdiyevanın, Solmaz Qasımovanın, Zemfira Abdullayevanın rolunu xüsusi qeyd etmək lazımdır.

L.Məlikovanın "Tofiq Quliyev"[1] monoqrafiyası bəstəkarın həyat və yaradıcılıq yoluna həsr olunmuş ilk tədqiqatdır. Müəllif T.Quliyevin həyat və yaradıcılığı ilə bağlı məlumatları işıqlandırmış, bəstəkarın o dövrdə yaranmış bir sıra əsərlərinə diqqət yetirmişdir.

Z.Bakıxanovanın "Tofiq Quliyev"[2] monoqrafiyasında və məqalələrində müəllif bəstəkarın həmin dövrə qədər olan yaradıcılığını ayrı-ayrı sahələr üzrə təhlil edərək, onun hərtərəfli portretini yaratmağa çalışmışdır.

N.Mehdiyevanın "Tofiq Quliyev" monoqrafiyasında T.Quliyevin yaradıcılığının əsas xüsusiyyətləri yığcam və konkret şəkildə səciyyələndirilmişdir. Müəllif T.Quliyevin həyat yolu, vokal və instrumental əsərləri haqqında məlumat verməklə, əsas diqqəti bəstəkarın kino musiqisinə yönəltmişdir.

S.Qasımovanın və Z.Abdullayevanın birgə müəllifliyi ilə yazılmış monoqrafiyada[3] bəstəkarın həyat və yaradıcılıq yolu, eləcə də mahnıları, musiqili komediyaları, fortepiano əsərləri ayrıca bölmələrdə təhlil obyektinə çevrilmişdir. Eləcə də S.Qasımovanın "Tofiq Quliyevin mahnılarının bəzi üslub xüsusiyyətləri"[4] məqaləsində bəstəkarın vokal yaradıcılığının əsas cəhətləri öz əksini tapmışdır.

Z.Abdullayevanın Tofiq Quliyevə həsr olunmuş "Ecazkar sənətkar"; "Tofiq Quliyev. Musiqidə döyünən ürək" monoqrafiyaları və məqalələri[5] bəstəkarın həyat və yaradıcılığı ilə bağlı maraqlı faktlarla zəngindir. Sonuncu nəşr – "Tofiq Quliyev. Musiqidə döyünən ürək" monoqrafiyası 2017-ci ildə T.Quliyevin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir. Bu, T.Quliyevin həyat və

---

[1] Меликова Л.М. Тофик Кулиев. Б.: 1968.

[2] Бакиханова З.М. Тофик Кулиев. Б.: 1979; Bakıxanova Z.M. Zəngin yaradıcılıq yolu. "Ədəbiyyat və incəsənət" qəzeti, 19 noyabr, 1977.; Bakıxanova Z.M. Çoxcəhətli sənətkar // "Qobustan" jurnalı, 1978, №2, Aprel-iyun. s.10-14.

[3] Касимова С.Дж., Абдуллаева З.К. С песней по жизни. (О творчестве Тофика Кулиева). Б.: изд-во «Азербайджан», 1995.

[4] Qasımova S.C. Tofiq Quliyevin mahnılarının bəzi üslub xüsusiyyətləri. // "Musiqi dünyası" jurnalı, № 1 (2), 2000. S.36-39.

[5] Abdullayeva Z.K. Ecazkar sənətkar. B.: "Çinar-çap", 2007; Abdullayeva Z.K. Tofiq Quliyev. Musiqidə döyünən ürək. Heydər Əliyev Fondunun nəşri. B.: 2017; Abdullayeva Z.K. Nəğmələrdə yaşayan ömür. // "Musiqi dünyası" jurnalı, № 3-4 (33), 2007. s. 74.; Абдуллаева З.К. Азербайджанские народные мелодии (в записи и фортепианно обработке). Б.: 1992; Абдуллаева З.К. Жизнь, что песня. «Бакинский рабочий», 7 ноября, 1997

yaradıcılığına həsr olunmuş kitab və diskdən ibarət iri həcmli multimedia toplusudur. Kitabda bəstəkarın həyat və yaradıcılığını əks etdirən məlumatlar, görkəmli şəxsiyyətlərin, mədəniyyət xadimlərinin xatirələri və fikirləri, arxiv materialları yer almışdır. Kitaba "Ön sözü" Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yazmışdır. Layihənin rəhbəri Anar Ələkbərov, tərtibçi Ülviyyə Qasımova, arxiv materiallarının tərtibçisi Lalə Quliyevadır.

Musiqişünaslar arasında T.Quliyevin yaradıcılığına xüsusi bir maraq özünü büruzə verir. Belə ki, bəstəkarın yubileyi, əsərlərinin premyeraları ilə bağlı çoxsaylı resenziyalar qəzet və jurnallarda çap olunmuşdur. Bir sıra bəstəkarların, musiqişünasların, ifaçıların və mədəniyyət xadimlərinin - R.Behbudovun, A.Tağızadənin, R.Fərhadovanın, H.Xanməmmədovun, M.İbrahimovun, R.Zöhrabovun, C.Abbasovun[6] və başqalarının məqalələrində bəstəkarın yaradıcılığı işıqlandırılmışdır.

T.Quliyevin yaradıcılığı bir çox məqalələrdə və metodik vəsaitlərdə işıqlandırılmış, ayrı-ayrı əsərlər müxtəlif aspektlərdən bir çox musiqişünaslar tərəfindən tədqiq olunmuşdur. Eyni zamanda, bir sıra dissertasiya işlərində T.Quliyevin yaradıcılığı müəyyən aspektlərdən tədqiqat obyektinə çevrilmişdir.

Musiqişünas İmruz Əfəndiyeva öz tədqiqatlarında – "Азербайджанская советская песня" monoqrafiyasında və "Mahnı ömrü", "Звени душа в песне" məqalələrində[7] Tofiq Quliyev yaradıcılığına xüsusi yer ayırmışdır.

Tərlan Seyidovun "XX əsr Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkar yaradıcılığı" sənətşünaslıq üzrə doktorluq dissertasiyasında və eyni adlı monoqrafiyasında, eləcə də "Azərbaycan fortepiano musiqisi janrlarının inkişafı" monoqrafiyasında[8] T.Quliyevin

---

[6] Behbudov R.M. Yeni mahnılarını gözləyirəm. "Ədəbiyyat və incəsənət" qəzeti, 19 noyabr, 1977.; Тагизаде А.З. Песня сердца. Газ. «Вышка», 18 ноября, 1977.; Фархадова Р.Д. Талант и мастерство. Газ. «Вышка», 8 ноября, 1977.; Ханмамедов Г.Д. «Доброе утро, Элла!». Газ. «Бакинский рабочий», 28 ноября, 1973.; İbrahimov M.Ə. Görkəmli bəstəkar və musiqi bilicisi. "Xalq qəzeti", 7 noyabr, 1992.; İbrahimov M.Ə. Sənət və ləyaqət. "Ədəbiyyat və incəsənət" qəzeti. 1990, 12 oktyabr. s.2; Zöhrabov R.F. Azərbaycan estradasının banisi. "Azərbaycan" qəzeti, 1992, 7 noyabr.; Zöhrabov R.F. Həmişəcavan mahnılar müəllifi. "Azərbaycan" qəzeti. 1997, 7 noyabr.; Abbasov C.Ə. "Ürək mahnıları". // "Musiqi dünyası" jurnalı, № 1-2 (7), 2001. s. 187-188.

[7] Эфендиева И.М. Азербайджанская советская песня. Б., Язычы, 1981. 150с.; Эфендиева И.М. Звени душа в песне. Газ. «Баку», 17 ноября, 1977.; Əfəndiyeva İ.M. Mahnı ömrü // "Ulduz" jurnalı. 1988, №10, Oktyabr. s.81-83.

[8] Сеидов Т.А. Азербайджанская фортепианная культура XX века: педагогика, испол-

fortepiano əsərlərinin yaranma tarixi, pianoçuların tədris və konsert repertuarında onların yeri Azərbaycan fortepiano musiqisinin ümumi inkişafı mənzərəsində nəzərdən keçirilmişdir.

Mehparə Rzayevanın 2016-cı ildə sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş "Tofiq Quliyevin musiqi dili" adlı dissertasiyasını qeyd etmək lazımdır[9]. Dissertasiya arxiv materialları əsasında T.Quliyev yaradıcılığının musiqi dili və onunla bağlı yaradıcılıq xüsusiyyətlərinin araşdırılmasına həsr olunmuşdur. Burada T.Quliyevin mühüm əhəmiyyət kəsb edən, lakin bu günə kimi araşdırılmamış müxtəlif janrlı əsərləri elmi cəhətdən təhlil olunmuşdur. Dissertasiyada T.Quliyevin mahnılarında melodik hərəkətin xüsusiyyətləri, böyük simfonik orkestr üçün bəstələnmiş əsərlərində simfonik üslubunun şərhi, musiqili komediyalarında və dram tamaşalarına yazılan əsərlərində musiqi dili və janr xüsusiyyətləri tədqiq olunmuşdur.

T.Quliyevin həyat və yaradıcılığını geniş surətdə əhatə edən elektron mənbə - bəstəkarın memorial saytı[10] – qeyd olunmalıdır. Bu layihənin müəllifi – Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. Layihənin koordinatoru: "Musiqi Dünyası" jurnalının baş redaktoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tariyel Məmmədovdur.

T.Quliyevin yaradıcılığına həsr olunmuş elmi tədqiqatların icmalından göründüyü kimi, bəstəkarın əsərlərinin yaranma tarixi, məzmunu, xarakteri, forması, üslub cizgiləri və musiqi dilinin bir sıra cəhətləri öyrənilmişdir. Lakin bu tədqiqatların əksəriyyətində bəstəkarın musiqi dilinin milli xüsusiyyətlərinin araşdırılması, muğamların, xalq mahnı və rəqslərinin, aşıq havalarının not yazılarının və işləmələrin onun yaradıcılığındakı əhəmiyyətli rolunun öyrənilməsi, xalq musiqisindən, ənənəvi məqam-intonasiya əlamətlərindən istifadə məsələləri bir qədər diqqətdən kənarda qalmışdır. Buna görə də biz xüsusi olaraq, T.Quliyevin yaradıcılığında milli musiqi qanunauyğunluqlarından istifadə məsələlərini araşdırırıq ki, bu da bəstəkarın yaradıcılıq üslubunun mühüm əlamətlərini üzə çıxarmaq imkanı verir.

---

нительство и композиторское творчество. Б.: 2006; Сеидов Т.А. Развитие жанров азербайджанской фортепианной музыки. Б.: Шур, 1992.

[9] Rzayeva M.A. Tofiq Quliyevin musiqi dili. Sənətşünaslıq üzrə fəlsəfə doktoru e.d. ... dissertasiyanın Avtoreferatı. B.: 2016.

[10] http://tofiqquliyev.musigi-dunya.az

**Dissertasiyanın məqsədi və vəzifələri.** Dissertasiyanın məqsədi T.Quliyevin yaradıcılığının tam şəkildə tədqiqata cəlb olunmasından və onun musiqisinin milli qaynaqlarla əlaqəsinin geniş və hərtərəfli surətdə öyrənilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı **vəzifələr** irəli sürülür və onların həlli qarşıya qoyulur:

– T.Quliyevin yaradıcılıq sahələrinin – bəstəkarlıq və etnomusiqişünaslıq fəaliyyətinin qarşılıqlı əlaqədə araşdırılması;

– bəstəkar tərəfindən nota salınmış "Rast" və "Zabul" muğamlarının tədqiqi və onların tarixi əhəmiyyətinin üzə çıxarılması;

– nota salınmış xalq rəqslərinin və işləmələrinin öyrənilməsi;

– vokal əsərlərinin musiqi dili və janr rəngarəngliyi baxımından təhlili;

– fortepiano əsərlərinin təhlili;

– yaradıcılığının sahələrini araşdırmaqla, bu prosesdə bəstəkarın əsərlərinin milli musiqi kontekstində tədqiqi;

– bəstəkarın özünəməxsus üslubunu milli xüsusiyyətlər baxımından araşdırmaq və elmi-nəzəri səviyyədə ümumiləşdirmək.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq T.Quliyevin yaradıcılığının milli qaynaqları dissertasiya səviyyəsində hərtərəfli tədqiq edilmişdir. Bu baxımdan:

a) bəstəkarın nota yazdığı muğamlar, xalq mahnı və rəqsləri və yaratdığı işləmələr təhlilə cəlb olunmuş;

b) bəstəkarın əsərlərinin musiqi dili və üslub xüsusiyyətləri açıqlanmış;

c) bəstəkarlıq və etnomusiqişünaslıq fəaliyyəti vəhdətdə araşdırılmış;

d) bəstəkarın vokal yaradıcılığı – mahnı və romansları, fortepiano əsərləri təhlil edilmiş;

e) yaradıcılığının janr xüsusiyyətləri üzə çıxarılmış, musiqi dili ilə bağlı tapıntılar aşkar edilmiş;

f) onun xalq musiqisinə və muğama yaradıcı münasibəti açıqlanmışdır.

T.Quliyevin əsərlərinin bədii keyfiyyətləri, onun yenilik axtarışları, xalq musiqisi və muğam ənənələrindən yaradıcılıqla bəhrələnməsi və bunun musiqi dilinin xüsusiyyətlərinə təsirinin araşdırılması, bəstəkarın etnomusiqişünaslıq fəaliyyətinin Azərbaycan musiqisindəki əhəmiyyətli rolunun tədqiqi ilk dəfə olaraq dissertasiya işi səviyyəsində həyata keçirilmişdir.

**Dissertasiyanın metod və metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil

metodundan istifadə edilmişdir. Bu məqsədlə Azərbaycan musiqişünaslarının elmi yaradıcılığına müraciət edilmiş, musiqi mədəniyyətinin, bəstəkarlıq sənətinin formalaşması yolları nəzərdən keçirilmişdir. T.Quliyevin əsərlərinin təhlili musiqi nəzəriyyəsinin müddəaları baxımından aparılmışdır.

Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Elmira Abasovanın, Gülnaz Abdullazadənin, Zemfira Abdullayevanın, Zərifə Bakıxanovanın, Solmaz Qasımovanın, İmruz Əfəndiyevanın, Fərəh Əliyevanın, Cəmilə Həsənovanın, Şəhla Həsənovanın, Rəna Məmmədovanın, Tərlan Seyidovun, Ramiz Zöhrabovun və başqalarının Azərbaycan musiqisinə, bilavasitə Tofiq Quliyevin yaradıcılığına və xalq musiqinə həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş, işdə bütün bu musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur. Eləcə də xarici musiqişünaslardan L.Mazel, İ.Zemçovski və başqalarının metodoloji prinsiplərindən istifadə olunmuşdur.

**Tədqiqatın obyektini** Tofiq Quliyevin yaradıcılığının milli qaynaqlarının öyrənilməsi, bəstəkarın fəaliyyət sahələrinin araşdırılması və onun xalq musiqisi mənbələrinə yaradıcı münasibətinin üzə çıxarılması məsələləri təşkil edir.

**Tədqiqatın predmetini** Tofiq Quliyevin yaradıcılığında müxtəlif janr və formalı vokal və instrumental əsərlərin, xalq musiqisi nümunələrinin işləmələrinin araşdırılması, musiqi dilinin milli xüsusiyyətlərinin aşkarlanması baxımından təhlili, milli musiqinin qanunauyğun cəhətlərinin bəstəkarlıq üslubunun formalaşması Azərbaycan musiqi tarixi prosesinə təsiri məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın faktiki materialını** Tofiq Quliyevin vokal və instrumental əsərləri, muğamların, xalq mahnı və rəqslərinin not yazıları və işləmələri təşkil edir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Xüsusilə ali və orta ixtisas musiqi məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan xalq musiqi yaradıcılığı", "Azərbaycan musiqi tarixi", "Pedaqoji hazırlıq" və s., habelə incəsənət sahəsini əhatə edən digər fənlərin tədrisində, eləcə də elmi biliklərin populyar şəkildə yayılması işində faydalı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları müəllifin elmi kon-

franslarındakı çıxışlarında, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, dörd fəsil, üç bölmə, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı və saytoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Tofiq Quliyevin milli musiqi irsinin qorunmasında rolu"** adlanır və üç bölmədən ibarətdir. **1.1. "Bəstəkar Tofiq Quliyevin həyat və yaradıcılıq yolunda milli musiqi qaynaqlarına müraciət"**lə bağlıdır.

T.Quliyevin tərcümeyi-halı haqqında bir çox mənbələrdə məlumat verilmişdir. Bəstəkarın həyat və yaradıcılıq yolunu işıqlandıran tədqiqat əsərlərinə əsaslanaraq, mövzumuzla əlaqədar bir neçə faktı qeyd etmək istərdik.

Sənətdə ilk addımlarından T.Quliyev milli musiqi ilə təmasda olmuşdur. T.Quliyev ilk musiqi təhsilini 1930-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının fəhlə fakültəsində almış, professional musiqi təhsili almaq üçün 17 yaşında ikən Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Burada o, iki fakültədə təhsil alır: fortepiano (professor İ.Aysberqin sinfi) və dirijorluq üzrə (S.Ştrasserin sinfi). Nəzəri fənləri o, professor L.Rudolfdan, Azərbaycan xalq musiqisinin əsaslarını isə professor Ü.Hacıbəylidən öyrənir. Üzeyir bəyin dərsləri, onun musiqimizin inkişaf yolları haqqında, xalq musiqisinin bəstəkar üçün necə imkanlar açması haqqında söhbətləri T.Quliyevə böyük təsir göstərmişdir. Üzeyir bəyin tövsiyələri onun sənət amalına çevrilmişdir. Xalq musiqiçilərinin ifasından muğam, xalq mahnı və rəqslərimizin nota salınması və işlənilməsi ilə bağlı marağı da bunun nəticəsi idi.

Tofiq Quliyevin musiqi üslubunun dərin köklərlə milli musiqi irsinə bağlılığı məhz onun gənclik illərindən, təhsil dövründən və yaradıcılıq yolunun başlanğıc mərhələsindən özünü göstərir. Yaradıcılığının yetkinlik dövründə də, onun müxtəlif musiqi janrlarını əhatə edən əsərlərində də bu, özünü aydın büruzə verir.

Əlbəttə ki, Azərbaycan milli musiqisinin özəyi və bəstəkarların yaradıcılığını qidalandıran əsas mənbə olan şifahi ənənəli musiqi – muğamlar, aşıq havaları, xalq mahnı və rəqsləri T.Quliyevin yaradıcılığının da milli

qaynaqlarıdır. Eyni zamanda Tofiq Quliyevin bu mənbəyə bilavasitə müraciət etməsi diqqətəlayiqdir.

1932-1943-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Bülbülün rəhbərliyi ilə fəaliyyət göstərmiş Elmi-Tədqiqat Musiqi Kabinetində çalışan bir sıra gənc bəstəkarlarla yanaşı, T.Quliyev də şifahi ənənəli musiqini – muğamları, xalq mahnı və rəqslərini nota yazması və işləməsi ilə milli musiqi irsinin qorunmasında mühüm rol oynamışdır. Xususilə Azərbaycan musiqi tarixində muğamların ilk not nəşrləri Tofiq Quliyev və Zakir Bağırovun adı ilə bağlıdır.

1930-cu illərdə muğamların nota salınması ilə bir çox bəstəkarlar məşğul olmuşlar. Bu sahədə Müslüm Maqomayevdən sonra, Niyazinin, Qara Qarayevin, Fikrət Əmirovun da diqqətəlayiq işləri olmuşdur. Məlumdur ki, bütün bu not yazıları bəstəkarlar üçün yaradıcılıq təcrübəsi və milli musiqi üslubunun formalaşmasında bir mənbə olmuşdur.

1936-cı ildə Tofiq Quliyev və Zakir Bağırovun nota yazdıqları "Rast", "Zabul", "Dügah" muğamları "Azərnəşr" tərəfindən çap edilmiş və muğamların ilk not nəşrləri kimi musiqi tarixinə daxil olmuşdur. Bu muğamlar ustad tarzən-pedaqoq, böyük muğam bilicisi Mansur Mansurovun ifasından nota yazılmışdı. T.Quliyev "Rast dəstgahı"nı və "Zabul dəstgahı"nı, Z.Bağırov isə "Dügah dəstgahı"nı nota salmışlar. Hər üç muğam L.Rudolfun harmonizəsində verilmiş və fortepiano üçün tərtib olunmuşdur. Burada sərbəst improvizənin metro-ritmik ölçüsünü, melizmatikasını dəqiq yazmaq və muğamların məqam xüsusiyyətlərini harmonik dildə əks etdirmək məsələsinə böyük diqqət yetirilmişdir. Bu da not yazısı üzrə muğamların fortepianoda ifa olunmasına imkan yaradır.

T.Quliyevin və Z.Bağırovun muğamların nota salınması sahəsində fəaliyyəti musiqi ictimaiyyəti tərəfindən təqdir olunmuş və muğamların ilk not nəşrləri yüksək qiymətləndirilmişdir. Muğamların not yazıları haqqında Ü.Hacıbəylinin məqaləsi əlyazma şəklində T.Quliyevin arxivində saxlanılır[11].

T.Quliyev 1950-ci illərdə də muğamların nota yazılması məsələləri ilə məşğul olmuşdur. O, "Rast" muğamını vokal-instrumental şəkildə tarzən Qurban Pirimovun müşayiətilə xanəndə Zülfü Adıgözəlovun ifasından notlaşdırmışdır. Həmin not yazısından "Mayə" şöbəsi V.Belyayevin "Очерки истории музыки народов СССР" ("SSRİ xalqlarının musiqi tarixinə dair oçerklər") kitabında nümunə kimi çap olunmuşdur (1963, s.54-59). Qeyd

[11] http://tofiqquliyev.musigi-dunya.az/pisma/61.html.

edək ki, T.Quliyevin bu not yazısı muğamların vokal-instrumental şəkildə ilk not yazısı hesab olunur.

Eyni zamanda, Tofiq Quliyevin etnomusiqişünaslıq sahəsindəki fəaliyyəti xalq mahnı və rəqslərinin, aşıq havalarının, muğamların not yazıları ilə məhdudlaşmayaraq, şifahi ənənəli musiqinin əsas xüsusiyyətlərinin şərhi ilə bağlıdır.

"Tofiq Quliyev" veb-saytının "Şəxsi arxiv" bölməsində bəstəkarın əlyazmaları arasında maraqlı bir araşdırma əsasında aparılmış qeydlərə rast gəlirik: "T.Ə.Quliyev. SSRİ-yə daxil olan respublikaların və muxtar respublikaların musiqi mədəniyyətinin inkişafı haqqında qeydlər dəftəri"[12].

Bu əlyazmada Azərbaycan, Ukrayna, belorus, gürcü, erməni, özbək, tacik, türkmən, qazax, qırğız, başqırd, tatar, buryat-monqol, çuvaş xalqlarının musiqi mədəniyyətinin inkişaf tarixi, musiqi janrları, musiqi alətləri, ifaçılıq və yaradıcılıq məsələləri, poeziya və musiqi əlaqələri, bədii ifadə vasitələri, səs sistemi, quruluş xüsusiyyətləri və s. haqqında maraqlı məlumat öz əksini tapmışdır. T.Quliyev şifahi ənənəli musiqinin janr xüsusiyyətlərini və ifadə vasitələrini konkret və dəqiq şəkildə şərh etmişdir. T.Quliyev tərəfindən xalq mahnılarının, aşıq havalarının, muğamların izahı Azərbaycan musiqişünaslığında mövcud olan janr təsnifatlarından bir qədər fərqlidir. Fikrimizcə, musiqişünaslar bu kimi məsələlərin öyrənilməsində T.Quliyevin izahlarına da diqqət yetirərək, onları tədqiqata cəlb etməlidirlər.

Beləliklə, T.Quliyevin yaradıcılıq yolunun birinci mərhələsində etnomusiqişünaslığın inkişafında mühüm xidmətləri olmuşdur və bunların ayrılıqda öyrənilməsi, onun nota yazdığı xalq mahnı və rəqslərinin, muğamlarının təhlili etnomusiqişünaslıqda böyük əhəmiyyət kəsb edir.

Sonradan T.Quliyev Moskvada təhsil almış, özünəməxsus üsluba malik bəstəkar, pianoçu, dirijor, musiqi xadimi kimi çoxcəhətli fəaliyyət göstərmişdir. O, əldə etdiyi biliklərə və qazandığı təcrübəyə əsaslanaraq, yaradıcılığını zənginləşdirmiş, vokal və instrumental musiqi janrlarında əsərlər bəstələmişdir. T.Quliyev, eləcə də dünya estradasının nailiyyətlərindən bəhrələnərək, Azərbaycan musiqi mədəniyyətinin inkişafı yolunda çalışmışdır. Bu baxımdan, 1939-cu ildə T.Quliyevin Niyazi ilə birlikdə Azərbaycan Dövlət Estrada Orkestrini yaratması musiqi mədəniyyətimizdə böyük hadisə olmuşdur. Tofiq Quliyevin adı musiqi tariximizə Azərbaycan estrada və caz musiqisinin banisi kimi yazılmışdır.

---

[12] http://tofiqquliyev.musigi-dunya.az/az/pers_archive.html

T.Quliyevin yaradıcılıq irsi geniş və rəngarəngdir. Onun zəngin musiqi irsində bir çox musiqi janrlarında yazılmış müxtəlif məzmunlu əsərlər layiqli yer tutur: simfonik musiqi ("Simfonik rəqslər", "Qaytağı"), operetta ("Aktrisa", "Qızıl axtaranlar", "Sənin bircə sözün", "Tahirin süqutu", "Sabahın xeyir, Ella"), kantata ("Moskva haqqında mahnı"), kamera-instrumental (fortepiano üçün variasiyalar, prelüdlər, "Cəmilənin albomu" fortepiano pyesləri məcmuəsi, skripka və fortepiano üçün sonata), kino və dram tamaşalarına musiqi, mahnı və romanslar bəstələmişdir. Onun əsərlərinin əksəriyyəti tədris və konsert proqramlarının ayrılmaz hissəsinə çevrilmişdir. T.Quliyevin xalq musiqisi nümunələrinin fortepiano işləmələri də diqqətəlayiq olub, pyeslər şəklində kiçik yaşlı pianoçuların repertuarına daxildir.

T.Quliyevin yaradıcılığında mahnı janrı aparıcı yer tutur. Onun mahnılarını mövzusuna görə vətən haqqında mahnılar, əmək, lirik, məzəli, uşaq mahnıları kimi bir neçə yerə ayırmaq olar. Vətən haqqında mahnılar sırasında "Azərbaycan", "Bakı" mahnılarını xüsusi qeyd etmək lazımdır. T.Quliyev Bakı haqqında bir neçə mahnının müəllifidir. Əmək mahnıları sırasında "Neftçi", lirik mahnılardan "Axşam mahnısı", "Zibeydə", "Qızıl üzük", "Əziz surət", "Sənə də qalmaz" və s., uşaq mahnılarından "Kəndimiz" və digər mahnıların adını çəkə bilərik. Bütün bu mahnıların musiqi dili xalq musiqi mənbələrinə əsaslanır.

Tofiq Quliyevin Azərbaycan kinosunun inkişafında da mühüm xidmətləri olmuşdur. "Səbuhi", "Görüş", "Ögey ana", "Qızmar günəş altında", "Telefonçu qız", "Bəxtiyar", "Onu bağışlamaq olarmı?", "Möcüzələr adası", "Qayınana", "Nəsimi" və başqa filmlərə (40-dan artıq) yazdığı musiqi əsl sənət əsərləridir. Həmin ekran əsərlərində mahnılar filmin məzmununun açılmasında əsas bədii vasitəyə çevrilmişdir. Onlar hadisələrin təsvirində, xarakterlərin açılmasında mühüm rol oynayır. Eyni zamanda, bu mahnılar filmin kontekstindən çıxaraq, müğənnilər tərəfindən müstəqil ifa olunur.

Kino musiqisində T.Quliyev həmçinin xalq mahnı və rəqslərindən geniş istifadə etmişdir. "Bəxtiyar" filmində "Ağacda leylək" xalq mahnısı, "Qıtqılıda" xalq rəqsi, "Görüş" filmində "Qazağı", "Nəlbəki" və s. rəqslər, "Dərviş Parisi partladır" filmində "Şuşanın dağları" xalq mahnısı, "Qızıl gül" və s. rəqslər, "Ögey ana" filmində aşıq havası buna nümunə ola bilər. Bu kimi xalq musiqi nümunələrindən istifadə filmin məzmunu baxımından özünü doğruldur və obrazların açılmasına yardımçı olur. Adı çəkilən filmlərdə xalq rəqslərinin və aşıq havasının səsləndirilməsi ilkin mənbədə olduğu kimi, xalq çalğı alətləri ansamblının ifasında verilmişdir.

T.Quliyevin filmlərə yazdığı musiqidə xalq musiqi nümunələri onun öz orijinal mahnıları ilə yanaşı səslənərək tam bir vəhdət təşkil edir, bəstəkar musiqisi üslubuna görə milli musiqi ənənələri ilə üzvi surətdə uzlaşır.

Burada belə bir faktı qeyd etmək istərdik ki, musiqi ifaçılığında çox zaman səhv olaraq, "Bəxtiyar" filmindən "Ağacda leylək" mahnısı Tofiq Quliyevin bəstəsi kimi göstərilir. Lakin bu xalq mahnısı Cabbar Qaryağdıoğlunun ifasından Səid Rüstəmov tərəfindən nota yazılmış və çap olunmuşdur (1938). Həmin xalq mahnısı T.Quliyev tərəfindən işlənilərək filmin musiqi mətninə Bəxtiyarın uşaq vaxtı oxuduğu mahnı kimi daxil edilmişdir. Bu da bəstəkarın xalq musiqisinə yaradıcı münasibətindən irəli gəlir.

T.Quliyev həm də ictimai xadim kimi tanınmışdır. Onun Bəstəkarlar İttifaqına rəhbərlik etdiyi illərdə keçirilən qurultay və plenumlarda, müxtəlif tədbir və müzakirələrdə bəstəkar və musiqişünasların şifahi ənənəli musiqinin toplanması, yazıya alınması, işlənilməsi məsələləri daim diqqət mərkəzində olmuşdur. Bu məsələlərdə də T.Quliyevin fəal münasibəti diqqəti cəlb etmişdir. O, bu işlə məşğul olan bəstəkar və musiqişünaslara daim dəstək olmuş, bir sıra nəşrlərin redaktoru olmuşdur.

Bu baxımdan 1960-1970-ci illərdə bəstəkar Nəriman Məmmədov tərəfindən tarzən Əhməd Bakıxanovun ifasından nota yazılmış bir sıra Azərbaycan muğamlarının Bakıda və Moskvada həyata keçirilən nəşrlərinin redaktoru olması faktı əlamətdardır. T.Quliyev, həmçinin, musiqişünas-alim Əhməd İsazadənin və bəstəkar Nəriman Məmmədovun respublikanın rayonlarından toplayıb nəşr etdirdikləri "Azərbaycan xalq mahnıları və oyun havaları" məcmuəsinin (1975) redaktoru olmuşdur.

Beləliklə, T.Quliyev bütün fəaliyyəti boyu xalq musiqisi və muğam sənəti ilə yaxın təmasda olmuş, onun musiqi yaradıcılığı bu mənbədən qaynaqlanmış, özünəməxsus musiqi üslubu və musiqi dili formalaşmışdır. Xalq musiqi yaradıcılığı nümunələrinin və muğamların nota yazılması və işlənilməsi sahəsindəki işi onun əsərlərinin məzmununa və musiqi quruluşuna da təsir etmişdir.

Dissertasiyanın **1.2. "Tofiq Quliyev tərəfindən nota salınmış "Rast" muğamının təhlili"**nə həsr olunmuşdur.

Dissertasiyanın növbəti bölmələrində T.Quliyevin nota yazdığı "Rast" və "Zabul" muğamlarını təhlil edərək, eyni zamanda, onların fortepiano tədrisində ifaçılıq imkanlarını araşdırmışıq. Bizim əsas məqsədimiz muğamların not yazılarının ifaçılıq xüsusiyyətlərinin öyrənilməsindən və onların ifası zamanı bəzi nəzəri məsələləri aydınlaşdırmaqdan ibarətdir. Bu kimi təhlil, eyni zamanda, Azərbaycan məqamlarının mənimsənilməsi prosesinə də yardımçı

olaraq, muğamların tədris prosesində daha geniş tətbiqinə yol aça bilər. Bu da T.Quliyevin muğamların not yazılarını dəyərləndirməyə imkan yaradır.

İlk növbədə, diqqət yetirmək lazımdır ki, T.Quliyev Mansur Mansurovun tar ifasından nota yazdığı "Rast dəstgahı"nı "Rapsodiya" adlandırmışdır. Bununla bəstəkarın Şərq musiqi təfəkkürünün məhsulu olan muğam dəstgahı ilə Qərb musiqisindəki rapsodiya janrının yaxınlığını irəli çəkməsi və kompozisiya quruluşunu bu səpkidə şərh etməsi özünü göstərir.

Məlum olduğu kimi, həm muğam dəstgahının, həm də rapsodiyanın özünəməxsus ənənəvi quruluş xüsusiyyətləri vardır. T.Quliyevin muğam dəstgahı ilə rapsodiya arasında oxşar cəhətləri üzə çıxarması diqqətəlayiqdir və artıq not yazısında əyani olaraq, muğamın Avropa klassik musiqi formaları baxımından izahına yol açır.

T.Quliyevin not yazısında "Rast" muğamı aşağıdakı şöbələrdən ibarətdir: "Novruz rəvəndə" *(Adagio maestozo)*, "Rast" *(Largo; Andante ma non troppo)*, "Üşşaq", "Təsnif" *(Andante tranquillo)*, "Hüseyni" *(Andante)*, "Vilayəti" *(Andante)*, "Rəng" *(Andante; Poco poco accelerando; Allegro)*, "Xocəstə" *(Andante; Piu mosso; Allegro; Andante)*, "Təsnif", "Xavəran" *(Andante)*, "Əraq" *(Andantino)*, "Pəncgah" *(Adagio)*, "Raq", "Xavəran", "Əmiri" *(Adagio)*, "Məsihi" *(Adagio)*.

Templərin növbələşməsində özünü göstərən dəyişikliklər – *Adagio maestozo*-dan başlayaraq, kulminasiyaya doğru inkişaf prosesində *Allegro*-ya qədər tezləşmə və sona yaxınlaşdıqca yenidən *Adagio* tempinin bərpa olunması kompozisiyanın dramaturji vəhdətinə xidmət edir. Ümumiyyətlə, muğamın ənənəvi kompozisiya quruluşunda məqam əsası üzrə bütün bölmələri yüksələn ardıcıllıqla öz əksini tapır.

Muğamın tərkibindən göründüyü kimi, burada muğam şöbələri ilə təsnif və rənglərin növbələşməsi muğamın vokal-instrumental ifa tərzinə xasdır. Lakin not yazısının instrumental şəkildə həyata keçirildiyini qeyd etməliyik ki, bu da musiqi təcrübəsində muğamın instrumental ifa tərzindən fərqlənir. Nəzərdən keçirdiyimiz not yazısında T.Quliyev muğamın vokal-instrumental ifa tərzini instrumental ifaçılığa uyğunlaşdırmış, onu məhz fortepianoda ifa etmək üçün işləmişdir. Buna görə də not yazısında homofon-harmonik faktura tipi – aparıcı melodik xətt və müşayiət partiyalarına bölünmə üstünlük təşkil edir. Harmonik müşayiətdə fiqurasiyalı, akkordlu, imitasiyalı polifonik ifadə üsullarından istifadə olunur. Unison ifa tərzi çox az hallarda özünü göstərir.

T.Quliyevin notlaşdırmasında muğam şöbələrində improvizasiyalı muğam melodiyası bir xətdə (yuxarı səsdə - sağ əldə) verilir, digər xətdə

isə (aşağı səsdə - sol əldə) muğamın məqam əsasının dayaq-istinad pillələri burdon səs kimi saxlanılır.

Beləliklə, bəstəkar sadəcə muğam melodiyasını birsəsli şəkildə nota yazmamış, məhz vokal-instrumental ansambl ifaçılığının vəhdətini forte-pianoda təcəssüm etdirməyə çalışmışdır. Bununla yanaşı, bəstəkarın şöbələr arasında istifadə etdiyi təsnif və rənglər fortepiano üçün işləmələr şəklində öz əksini tapmışdır, xüsusilə vokal-instrumental təsnifin instrumental pyes kimi işlənilməsi qeyd olunmalıdır. Bütün bunlar bəstəkar tərəfindən məqsədli olaraq, vokal-instrumental muğam dəstgah kompozisiyasına xas olan bütün bölmələrin fortepiano ifaçılığına uyğun surətdə işlənilərək tətbiq edildiyini göstərir.

Muğam melodiyalarının qeyri-bərabər temperasiyalı xalq çalğı alətləri ifaçılığında olduğu kimi bütün xırdalıqları ilə müntəzəm temperasiyalı alət üçün nəzərdə tutulmuş not yazısında göstərilməsi müəyyən şərtiliklərlə bağlıdır. Buna görə də bəstəkar bu kimi xırdalıqları əks etdirmək üçün xanə ölçüsü daxilində müxtəlif ritmik qruplaşmalar tətbiq etmişdir. Bəzi hallarda isə xanə ölçüsü göstərilməsə də bəstəkar ştrixlər vasitəsilə frazalaşmada ritmik quruluşun aydınlaşdırılmasına nail olur. Bu cür yazı tərzi pianoçu üçün muğam improvizasiyasının ifasını asanlaşdırır.

T.Quliyevin not yazısındakı "Rast dəstgahı" üç inkişaf mərhələsinə bölünür: I mərhələ - mayə ətrafında qurulan şöbələr - "Novruz rəvəndə", "Rast", "Üşşaq", "Təsnif", "Hüseyni"; II mərhələ - kvinta tonu ətrafında qurulan şöbələr, digər muğamlara keçidlər - "Vilayəti", "Rəng", "Xocəstə", "Təsnif", "Xavəran"; III mərhələ - kulminasiya, yeni səviyyədə məqam reprizası, mayənin oktavasına istinad edən və mayəyə enmə ilə bağlı şöbələr - "Əraq", "Pəncgah", "Raq", "Xavəran", "Əmiri", "Məsihi".

Muğamın kompozisiya quruluşunun göstərilən üç inkişaf mərhələsini izlədikdə, onları əlaqələndirən şöbələri də qeyd etməliyik. Bunlar birinci mərhələdə "Novruzi rəvəndə", "Rast" və üçüncü, kulminasiya mərhələsində "Əraq" və mayəyə enmədən ibarətdir. Ümumiyyətlə, muğamın bu əsas şöbələri bir çox cəhətdən – istinad pilləsi, melodik, kadensiya xüsusiyyətləri baxımından bir-birilə əlaqəli olub, kompozisiyanın vəhdətini təmin edir. Eyni zamanda, adı çəkilən şöbələrdə tam kadensiyaların variantlığını da qeyd edə bilərik.

T.Quliyevin not yazısı muğam şöbələrinin təsnif və rənglərlə ardıcıllaşmasından ibarətdir. Müxtəlif xarakterli, müxtəlif melodik və metro-ritmik xüsusiyyətlərə malik olan bu bölmələr ümumilikdə muğamın kompozisiyasını əmələ gətirir. Burada hər bir bölmənin tempinin göstərilməsi ifaçı

üçün onun xarakterini təyin etməyə və muğamın obraz məzmununun açılmasına imkan verir.

**1.3. “Zabul” muğamının not yazısının təhlili”** ilə bağlıdır. T.Quliyevin nota yazdığı “Zabul” muğamında inkişaf xüsusiyyətləri, ifaçılıq üsulları, melodik və metroritmik cəhətdən zənginliyi ilə diqqətəlayiqdir. “Zabul dəstgahı”nın not yazısında muğamın tərkibi belədir: “Bərdaşt” *(Adagio)*, “Mayeyi-Zabul”, “Muyə” *(Andante sostenuto)*, “Manəndi-müxalif” *(Andantino; Alla Marcia)*, “Təsnif” *(Lento)*, “Segah”, “Məxlut”, “Rəng” *(Allegretto)*, “Şikəsteyi-fars” *(Andante)*, “Mübərriqə”, “Təsnif” *(Semplise)*, “Əraq”, “Yədi-həsar”, “Aşiqküş və Zabul” *(Adagio)*.

Müasir dövrdə ifaçılıq təcrübəsində “Zabul Segah” muğamının tərkibində mayəyə əsaslanan başlanğıc şöbələrin kulminasiyada təkrarlandığını qeyd etməliyik. Bu tərkiblərin orta bölməsində “Segah” yalnız bir muğam şöbəsi ilə təmsil olunmuşdur.

T.Quliyevin not yazısında isə başlanğıc şöbələr zildə təkrarlanmır. Mayə ətrafında qurulan “Bərdaşt”, “Mayeyi-Zabul”, “Muyə”, “Manəndi-müxalif”, “Təsnif” muğamın inkişafının birinci dalğasını əmələ gətirir. “Zabul dəstgahı”nın tərkibində “Segah” muğamı daha geniş verilmişdir və segah məqamına əsaslanan bir sıra şöbələrdən ibarətdir: “Segah”, “Məxlut”, “Rəng”, “Şikəsteyi-fars”, “Mübərriqə”, “Təsnif”. Bu da inkişafın ikinci dalğasını əmələ gətirir. “Zabul dəstgahı”nın not yazısında muğamın üçüncü inkişaf dalğası kulminasiya və mayəyə qayıdışla bağlıdır ki, bu da “Əraq”, “Yədi-həsar”, “Aşiqküş və Zabul” şöbələrini əhatə edir. Burada “Əraq” şöbəsində rasta keçid, “Yədi-hasar”da rastdan segaha keçid və sonda “Mayeyi-Zabul” kadensiyası əsasında yekunlaşma verilir.

Muğamın kompozisiyasında “Segah” və “Zabul” muğamlarına aid şöbələr demək olar ki, bərabər yer tutur. Hər iki muğam şöbələrinə aid melodik intonasiya quruluşu və kadensiya xüsusiyyətləri inkişaf boyu təkrarlanaraq, şöbələr arasında əlaqələr və keçidlər əmələ gətirir. “Zabul” dəstgahının quruluşunda maraqlı cəhətlərdən biri mövzu tağlarının (arkaların) özünü göstərməsidir. Bu baxımdan “Bərdaşt” və “Segah” şöbələrinin eyni mövzuya əsaslanması, “Mayeyi-Zabul” şöbəsinin kadensiyasının sonda təkrarlanması muğamın kompozisiya quruluşuna bütövlük gətirir.

Muğam tərkiblərinin müqayisəsi nəticəsində, qeyd edə bilərik ki, T.Quliyevin not yazısında muğamın qədim və geniş variantlarından biri qorunub saxlanmışdır. Bu da muğam sənətindəki inkişafı, muğam tərkiblərindəki dəyişikliyi üzə çıxaran mühüm faktlardan biri kimi dəyərləndirilə bilər. Muğamların ifaçılıq variantlarını ustad muğam ifaçılığının yaradıcılıq

məhsulu kimi qəbul edərək, deyə bilərik ki, Mirzə Mansur Mansurovun ifaçılıq variantı olan “Rast” və “Zabul” dəstgahlarını notlaşdırmaqla, T.Quliyev onların qorunması yolunda mühüm bir addım atmış, muğam ifaçılığının inkişaf tarixinin öyrənilməsinə böyük bir töhfə vermişdir.

Beləliklə, muğam ifaçılarının ənənələrini özündə əks etdirən muğam dəstgahlarının T.Quliyev tərəfindən həyata keçirilmiş instrumental və vokal-instrumental şəkildə not yazıları etnomusiqişünaslığı zənginləşdirən qiymətli mənbələr kimi diqqətəlayiqdir. Bu not yazıları piano ifaçıları üçün də tədris repertuarı kimi əlverişlidir. Notlaşdırmanın xarakteri, melodik xüsusiyyətləri, ritmik quruluşunun dəqiq ifadəsi improvizasiyalı muğam şöbələrinin fortepianoda dolğun təcəssümünə imkan verir.

Dissertasiyanın **II fəsli “Tofiq Quliyev yaradıcılığında Azərbaycan xalq mahnı və rəqslərinin not yazıları və işləmələri”** adlanır. Azərbaycanda xalq mahnı və rəqslərinin toplanıb nota yazılması ilə onların işlənilməsinin yanaşı aparıldığını görürük. Belə ki, bəstəkarlar xalq mahnı və rəqslərini həm toplayıb birsəsli şəkildə nota yazmışlar, həm də bəzi bəstəkarlar öz not yazılarını işləmiş, bəziləri isə müxtəlif bəstəkarların çap olunmuş nümunələrinə müraciət edərək, xalq mahnı və rəqslərinin fortepiano və müxtəlif ifaçılıq tərkibi üçün işləmələrini yaratmışlar.

1930-cu illərdə çap olunmuş məcmuələr əsasən birsəsli şəkildə not yazılarından ibarətdir. Bunlardan S.Rüstəmovun “50 Azərbaycan xalq mahnısı” (1938), “Azərbaycan rəqs havaları” (1937; yeni redaktə olunmuş nəşri 1950-ci ildə çap olunmuşdur) və s., 1950-ci illərdə Bülbülün redaktəsi ilə çap olunmuş S.Rüstəmov, F.Əmirov, T.Quliyevin not yazılarından ibarət iki cildlik “Azərbaycan xalq mahnıları” (1956-1958), T.Quliyev, Z.Bağırov və M.İsmayılovun “Azərbaycan xalq rəqsləri” (1951) və s. məcmuələri göstərmək olar. Sonrakı illərdə xalq melodiyalarının birsəsli nota yazılması ənənəsi davam etdirilmişdir. T.Quliyev bu nəşrlərin ərsəyə gəlməsində yaxından iştirak etmişdir. Məsələn, 1975-ci ildə çap olunmuş Ə.İsazadənin və N.Məmmədovun “Xalq mahnıları və oyun havaları” məcmuəsinin redaktoru Tofiq Quliyev olmuşdur.

T.Quliyevin birsəsli nota yazdığı xalq mahnıları Bülbülün redaktəsi ilə iki cilddən ibarət “Azərbaycan xalq mahnıları” məcmuəsində Səid Rüstəmov və Fikrət Əmirovun not yazıları ilə birgə çap olunmuşdur (1-ci cild 1956, 2-ci cild 1958-ci ildə işıq üzü görmüşdür). I cilddə T.Quliyevə məxsus not yazıları “Piyada Koroğlu”, “Yeri, yeri”, “Həyətləri soğanlıq”, II cilddə isə “Atlı Koroğlu” və “Yardan ayrıldım” xalq mahnılarıdır. Bu mahnılar “Azərbaycan xalq musiqisi antologiyası”nın I cildinə daxil edilmişdir (2003).

T.Quliyevin “Qoy gülüm gəlsin, ay nənə”, “Evləri var xana-xana” xalq mahnılarını səs və simfonik orkestr üçün işləmələrini də qeyd etməliyik (1958). T.Quliyev haqqında monoqrafiyalarda verilən məlumata görə, bəstəkar həmçinin başqa xalqların folkloruna da müraciət etmiş, hind, ərəb və bolqar mahnılarını səs və fortepiano üçün işləmişdir.

Xalq rəqslərinin nota salınmasında da T.Quliyev yaxından iştirak etmişdir. Tofiq Quliyev, Zakir Bağırov və Məmmədsaleh İsmayılovun not yazılarından ibarət olan “Azərbaycan xalq rəqsləri” məcmuəsi 1951-ci ildə Səid Rüstəmovun redaktorluğu ilə çap olunmuşdur. Bu məcmuəyə 22 qədim xalq rəqsi daxildir. Məcmuədəki rəqslərdən “Cıdır”, “Koroğlu”, “Əşrəfi” və s. qəhrəmani, hərbi və idman rəqslərinə aiddir. “Diringi”, “Şahsevəni”, “Oynamaq ovşarısı” ənənəvi toy mərasimi, “Sonayı”, “Ağaxanım”, “Aydını”, “Məsməyi” və s. müxtəlif mövzulu xalq rəqsləri insan adları ilə bağlıdır.

Rəqslərin not yazılarında bir sıra səciyyəvi cəhətləri müşahidə edirik. Məsələn, dəmkeşin dəm pilləsinin, əsas kökün saxlanması ayrıca sətirdə verilir, not yazılarında xalq musiqisinə məxsus ikisəslilik öz əksini tapır. Melodiyanın dayaq səsi üzərində burdon xarakterli xəttin göstərilməsi məqam əsasını da qabarıq üzə çıxarır. Melodiya və burdon xarakterli müşayiətdən ibarət olan not yazılarında rəqslərin xalq ifaçılığına yaxın üslubu qorunmuşdur.

Beləliklə, T.Quliyevin, Z.Bağırovun və M.İsmayılovun not yazılarından ibarət “Azərbaycan xalq rəqsləri” məcmuəsi özündə şifahi ənənəli musiqi yaradıcılığının qədim nümunələrini cəmləşdirməklə, janr və musiqi dilinin rəngarəngliyi, not yazı tərzi ilə diqqəti cəlb edir. Adı çəkilən məcmuədəki rəqslər 2003-cü ildə çap olunmuş “Azərbaycan xalq musiqisinin antologiyası”nın II cildinə daxil edilmişdir. Lakin burada xalq rəqslərinin not yazı üslubu sadələşdirilərək, bir səsli şəkildə, burdon müşayiətsiz verilmişdir.

Azərbaycan musiqisində xalq rəqslərinin fortepiano üçün işləmələrinin yaranması T.Quliyevin adı ilə bağlıdır. 1950-ci illərdə meydana gəlmiş T.Quliyevin “15 Azərbaycan xalq rəqsi”, o cümlədən, M.Əhmədovun “15 Azərbaycan xalq rəqsi”nin fortepiano üçün işləmələri və digər məcmuələr fortepiano ədəbiyyatını zənginləşdirən nəşrlərdir. T.Quliyevin bütün işləmələri 2011-ci ildə “Mütərcim” nəşriyyatında çap olunmuş “Azərbaycan xalq rəqsləri” (fortepiano üçün işləmələr) məcmuəsinə daxil edilmişdir.

T.Quliyevin “15 Azərbaycan xalq rəqsi” məcmuəsində işlədiyi rəqslər əsasən konsert pyesi xarakterlidir. Azərbaycan xalq rəqslərinin fortepiano üçün işləmələri ilə bağlı məcmuəyə yazdığı ön sözdə Tofiq Quliyev qeyd edir ki, “bundan məqsəd: əvvəla onları fortepianoda asanlıqla ifa etmək və sonra isə oyun melodiyalarının zəriflik və zənginliklərini saxlamaqdır”.

Göründüyü kimi, bəstəkar ilk növbədə, qarşısına xalq musiqi nümunələrinin qorunması və onların ifaçılıq təcrübəsində və tədris prosesində geniş tətbiq olunması məsələlərini qoymuşdur.

T.Quliyevin fortepiano üçün "Azərbaycan xalq rəqsləri" məcmuəsi ifaçılıq təcrübəsində xüsusi rəğbətlə qarşılanmış və qiymətli tədris vəsaitinə çevrilmişdir.

1960-cı ildə Respublika xalq yaradıcılığı evi tərəfindən qarmon ifaçısı Məmmədağa Ağayevin 10 rəqsdən ibarət məcmuəsi nəşr edilmişdir (Azərbaycan Dövlət musiqi nəşriyyatı, Bakı, 1960). Rəqsləri fortepiano üçün bəstəkar Tofiq Quliyev işləmişdir. Bu nəşrə ön sözü də T.Quliyev yazmışdır.

Məcmuədə müxtəlif xarakterli – şən-şux və lirik rəqslər toplanmışdır. Məcmuədəki rəqslər öz ritminə və melodik baxımdan müxtəlifliyinə görə diqqəti cəlb edir. Məsələn, "Mahnı-rəqs", "Gənclik rəqsi", "Baharı", "Naz eləmə", "Rövşəni", "Şamaxı rəqsi", "Nuxa rəqsi" və s. T.Quliyev rəqsləri fortepiano üçün işlədiyi zaman onların bütün intonasiya xüsusiyyətlərini qorumağa çalışmışdır. Rəqslərin işləmələrində fakturanın quruluşunu da qeyd etməliyik, çünki bu cəhət fortepiano ifaçılığında vacibdir.

Beləliklə, T.Quliyevin xalq rəqslərinin işləmələrində qeyd olunan bu xüsusiyyətlər bəstəkarın özünəməxsus üslubunun formalaşmasını göstərir. Nəzərdən keçirdiyimiz hər bir rəqs işləməsində bu kimi cəhətlər özünü qabarıq büruzə verir.

Dissertasiyanın **III fəsli "Tofiq Quliyevin vokal əsərlərində musiqi dilinin milli xüsusiyyətlərinin təhlili"** adlanır.

T.Quliyev Azərbaycan musiqi mədəniyyəti tarixinə obrazlı intonasiya quruluşu cəhətdən keyfiyyətcə yeni olan mahnıların yaradıcısı kimi daxil olmuşdur. T.Quliyevin mahnı yaradıcılığının əsas xüsusiyyətlərini xarakterizə edərkən bir neçə cəhəti xüsusilə qeyd etməliyik. Bunlar melodikanın quruluşunda, inkişaf üsullarında, məqam əsasında, forma və məqam əlaqəsində üzə çıxan xüsusiyyətlərdir.

"Bəxtəvər oldum" romansının forma və melodik quruluşu bilavasitə poetik mətnin və məqam əsasının xüsusiyyətləri ilə əlaqədardır. T.Quliyev şairin (Xaqani Şirvaninin) qəzəlinin valehedici zərifliyini ülvi hissləri vəsf edən musiqi vasitəsilə aça bilmişdir. Romans-qəzəldə "Çahargah" muğamının bütün şöbələrinin istinad pillələrinə dayaqlanmaqla, melodik intonasiya xüsusiyyətlərindən ardıcıl olaraq istifadə etmişdir. Muğamın ornamentli melodik improvizasiyası şeirin mətni ilə uyğunlaşdırılmışdır. Romansın melodik quruluşunda daim zirvəyə doğru can atan, yüksələn melodik hərəkət əsərin emosional ruhunu gücləndirir.

T.Quliyevin “Bəxtəvər oldum” romansı muğamın melodik və məqam-intonasiya inkişaf xüsusiyyətləri ilə bağlıdır. Qəzəlin əsaslandığı əruz vəzninin metro-ritmik xüsusiyyətləri melodiyanın strukturuna təsir edir. Romansın ümumi forma quruluşunda məqam əsasının və istinad-dayaq pillələrinin rolu böyükdür.

T.Quliyevin ən parlaq əsərlərindən biri olan, Rəsul Rzanın sözlərinə yazılmış “Sənə də qalmaz” mahnısında melodik inkişaf xüsusiyyətləri diqqəti cəlb edir. Bayatı-şiraz məqamına əsaslanan və məqam pillələri ətrafında gəzişməklə yaranan melodik quruluş rəvan və axıcı olmaqla yanaşı, həmçinin, reçitativ-deklamasiya xarakterlidir. Bu da ona həzinlik və təsirli ifadəlilik aşılayır. Müşayiət partiyasında özünü göstərən tanqo ritmi kupletdə və nəqəratda saxlanılır.

“Bakılıyam mən” (sözləri Nüsrət Kəsəmənlinindir) mahnısı kuplet və nəqəratdan ibarətdir. Kuplet və nəqərat bölgüsü poetik mətnin quruluşu ilə bağlıdır. Bunlar birlikdə musiqi mətnində bir-biri ilə əlaqədar olan və bir-birini tamamlayan bölmələr kimi şərh olunur. Mahnının ümumi forması da bu bölmələrin ardıcıl olaraq, kulminasiya qədər inkişafından əmələ gəlir. Formanın hissələri arasındakı münasibətdə segah məqamının pillələrinə dayaqlanma böyük rol oynayır.

“Darıxma” (sözləri Seyfəddin Dağlınındır) mahnısı formasına görə iki hissəli quruluşa malikdir. Məqam baxımından bayatı-şiraz məqamına (“re” mayəli) əsaslanır. Formanın bölmələrinin münasibətində məqam pillələrinə istinad qabarıqdır. Mahnının melodik quruluşu sadədir və xalq mahnı melodiyalarına yaxındır.

“Qız əlləri” (sözləri Vaqif Səmədoğlunundur) mahnısı “sol” bayatı-şiraz məqamına əsaslanır. Metroritmik quruluş vals ritmlərinə əsaslanır. Mahnıda təkrarlanmalardan istifadə olunur, cümlələrin və frazaların təkrarlanması nəqəratvari sözlərlə verilir. Kompozisiya sərbəst mərhələli inkişafa əsaslansa da, sondakı təkrarlanmalar tamlıq aşılayır.

“Mənim qızım” (sözləri Şəmsəddin Abbasovundur) iki hissəli – iki kupletli formadadır, hər hissə kuplet-bənd bölgüsünə əsaslanır ki, bunlar da özlüyündə ikihissəli quruluşa malikdir. Hər hissənin başlanğıc cümləsi dəyişir, bu zaman rast və segah məqamlarının əvəzlənməsi nəticəsində ikinci kupletin başlanması çox əyani görünür.

“Əziz surət” mahnısı (sözləri Zeynal Cabbarzadənindir) melodik quruluşuna görə maraqlıdır. Burada qeyd olunan ənənəvi kvinta sıçrayışı həm də mahnının geniş melodik inkişafına təkan verir və məqam-intonasiya dəyişilmələrinə yol açır. Bu cür melodik struktur ümumi cəhətlərinə görə

lirik xalq mahnılarına xas olsa da, burada artıq xalq mənbələrinə münasibət yeni səviyyədə, bəstəkar təxəyyülünün məhsulu kimi üzə çıxır.

T.Quliyevin mahnı yaradıcılığının əsas cəhəti onun melodik üslubu ilə bağlıdır. Bəstəkarın mahnılarının fərdi keyfiyyəti onun xalq mənbələrindən qidalanmasından irəli gəlir. T.Quliyevin mahnılarında kütləvi mahnılarla xalq mahnılarının ən müxtəlif cəhətlərinin yüksək səviyyədə qovuşduğunu görürük. Onun mahnılarında xalq mənbələrinə istinad məqam-intonasiya, struktur və kompozisiya xüsusiyyətləri ilə müəyyənləşir.

T.Quliyevin mahnılarında aparıcı rol vokal partiyaya mənsub olsa da fortepiano müşayiəti mühüm əhəmiyyətə malikdir və mahnının obrazlı məzmununun açılmasına xidmət edir. Fortepiano müşayiətində də xalq musiqisinə xas olan xüsusiyyətlər öz əksini tapır. Bunların sırasında improvizasiyalılıq, melodik bəzəklərdən istifadə, ostinato saxlanılmış bas səslərin tətbiqi qeyd olunmalıdır. Bu cəhətlər bilavasitə melodiyanın quruluşu ilə bağlı olub, onun məqam əsası, metroritmik xüsusiyyətləri üzərində qurulur. Bəstəkar fortepiano alətinin bütün zənginliyindən istifadə edərək, vokal səslə müşayiətin ahəngdar səslənməsinə nail olur.

Dissertasiyanın **IV fəsli “Tofiq Quliyevin fortepiano əsərlərinin məqam-melodik təhlili”**nə həsr olunmuşdur. Bu fəsildə biz T.Quliyevin fortepiano əsərlərindən “Variasiyalar”, iki prelüd, “Qaytağı” pyeslərinin və “Cəmilənin albomu” məcmuəsinin təhlilini veririk.

T.Quliyevin fortepiano üçün Variasiyaları (1953) parlaq, virtuoz effektli konsert əsəridir. Əsər mövzu və 10 variasiyadan ibarətdir. Silsilənin quruluşunda həm klassik, həm də romantik variasiyalar tipi özünü göstərir. Belə ki, ilk variasiyalar ciddi, sonrakı variasiyalar isə sərbəst və geniş inkişaflıdır. Əgər silsilənin əvvəlində mövzunun melodiyası, forması ilə əlaqə saxlanılırsa, sonrakı variasiyalarda mövzunun daxili quruluş hissələri daha sərbəst surətdə işlənilir, mövzu dərin dəyişikliklərə məruz qalır.

Variasiyalarda bəstəkar aydın milli xüsusiyyətlərə malik mövzunu, tematizmi, intonasiya quruluşunu və məqam əsasını virtuoz ifadə tərzi və ifaçılıq üsulları ilə qovuşdurur. Mövzu tədricən inkişaf edərək dinamikləşir, faktura mürəkkəbləşir, sıxlaşır, dolğunlaşır, fortepianonun tembr boyalarının rəngarəngliyi üzə çıxır. Variasiya silsiləsində temp və tonallıq planının da tədricən dəyişdiyini qeyd etməliyik: şur məqamının intonasiya quruluşu ilə qovuşdurulmuş əsas si-bemol minor tonallığı Re-bemol major və mi-bemol minorla əvəz olunur. Sonuncu iki variasiyada tonallıq qayıtsa da, mövzunun xarakteri bərpa olunmur. Ayrı-ayrılıqda variasiyalar kiçik həcmli pyesləri xatırladır və əsərin silsilə quruluşu onların bir-birilə əlaqəsindən əmələ gəlir.

T.Quliyevin fortepiano üçün iki prelüdü (1951) də musiqi dilinin milli mənbələrlə bağlılığı baxımından diqqətəlayiqdir. T.Quliyevin prelüdləri formasına görə tamamlanmış, mütənasib, məzmunca zəngin, dolğun pyeslərdir. Bu prelüdlərdə romantik əhval-ruhiyyə Azərbaycan xalq musiqisinin məqam-intonasiya xüsusiyyətləri ilə qovuşdurulmuşdur. Onların tematizminin əsasını Azərbaycan xalq musiqisi üçün tipik olan intonasiyalar, ibarələr təşkil edir. Xalq musiqisindən gələn inkişaf üsulları zəngin ritmik şəkillərdə, sekundalı akkord komplekslərində də özünü büruzə verir ki, bu da xalq çalğı alətlərinin (tar, saz) səslənməsini xatırladır.

T.Quliyevin parlaq və yaddaqalan fortepiano əsərlərindən biri "Qaytağı" konsert pyesidir. "Qaytağı" pyesi (1984) də janr və musiqi quruluşuna görə diqqətəlayiq xüsusiyyətlərə malikdir. Bəstəkarın fortepiano əsərləri arasında bu pyesin bir neçə dəfə işlənilməsinə rast gəlirik, belə ki, pianoçu Fərhad Bədəlbəyliyə həsr olunmuş konsert redaksiyası ilə yanaşı, pyesin kiçik yaşlı pianoçular üçün nəzərdə tutulmuş sadələşdirilmiş redaksiyası da vardır ki, bu da "Cəmilənin albomu" məcmuəsində öz əksini tapmışdır.

"Qaytağı" pyesi öz proqramlı başlığına və musiqi məzmununa görə bilavasitə Azərbaycan xalq rəqslərilə sıx bağlıdır. Məlum olduğu kimi, "Qaytağı" və ya "Ləzginka" (T.Quliyevin pyesinin rus dilində adı bu cür göstərilir) Azərbaycanda geniş yayılmış kişi rəqslərindəndir. Özünəməxsus melodik və metroritmik xüsusiyyətləri ilə seçilən bu rəqs ifaçıların çevikliyinin, virtuozluq qabiliyyətinin, gücünün, qüvvətinin nümayişi üçün geniş meydan açaraq, rəqqaslar arasında yarış əhval-ruhiyyəsi yaradır. Bu xüsusiyyətlər T.Quliyevin yaratdığı əsərdə də özünü çox qabarıq göstərir. T.Quliyevin yaratdığı "Qaytağı", sözün əsl mənasında, bəstəkarın təfəkkürünün məhsulu kimi üzə çıxır. Bəstəkar xalq rəqsinin ümumi ruhundan, xarakterindən, metro-ritmik və melodik quruluşundan istifadə edərək, orijinal konsert pyesi yaratmışdır.

T.Quliyevin "Cəmilənin albomu" fortepiano məcmuəsi (1980) 12 pyesdən ibarətdir. Onlar ifaçılıq baxımından çətinlik səviyyəsinə görə müxtəlif olsa da ümumiyyətlə, kiçik yaşlı və gənc musiqiçilər üçün nəzərdə tutulmuşdur. Hər bir pyesdə müəyyən bir yaddaqalan obraz öz əksini tapır. Bəzi pyeslərdə lirik xasiyyətli obrazlar diqqəti cəlb edir. Buna misal olaraq, "Qəmli", "Laylay", "Lirik vals" pyeslərindəki obrazları göstərə bilərik. "Qaytağı", "Rəqs" və "Marş" pyeslərində isə coşqun rəqs ritmləri təcəssüm olunur. "Seva velosipeddə", "Motor", "Göl qırağında", "İpatdı", "Gəzinti" pyesləri isə janr səhnələrini əks etdirir. "Nağıl" pyesi xəyali bir obraz yaradır.

Məcmuənin pyeslərinin musiqi dili eyni prinsiplərə əsaslanır. Burada ayrı-ayrı məqam-intonasiyalardan deyil, ümumi şəkildə pyesin məqam-tonallığından, eyni zamanda, melodiyanın əsas istinad pillələrindən və səs sırasının xromatikləşməsindən danışmaq daha düzgündür. Çox zaman isə əsas istinad pilləsi kimi tonika çıxış edir ki, bu da əsərin əvvəlində və sonunda inkişafın dayaq nöqtəsi, məqam-tonallığın əsas göstəricisi kimi özünü büruzə verir.

"Cəmilənin albomu" məcmuəsindəki pyeslərin parlaq obrazlılığı onların səhnələşdirilməsinə də yol açmışdır. Belə ki, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Orta ixtisas musiqi məktəb-studiyasının şagirdləri tərəfindən məcmuənin musiqisi əsasında tamaşa hazırlanmışdır (bədii rəhbəri Tərlan Seyidov, musiqi rəhbəri Adilə Yusifova).

Göründüyü kimi, T.Quliyevin fortepiano əsərləri onun yaradıcılığının mühüm bir hissəsini təşkil edir, onların hər biri özünəməxsus pianoçuluq keyfiyyətləri ilə fərqlənir. Demək olar ki, bəstəkarın fortepiano əsərlərinin əksəriyyəti gənc ifaçılar üçün nəzərdə tutulmuşdur. T.Quliyevin əsərləri Azərbaycan fortepiano ədəbiyyatına qiymətli töhfədir.

Tofiq Quliyevin yaradıcılığının tədqiqi, onun bəstəkarlıq və etnomusiqişünaslıq fəaliyyətinin öyrənilməsi, bəstəkarın milli musiqi mənbələrinə yaradıcı münasibəti və bu baxımdan əsərlərinin musiqi dilinin araşdırılması bir sıra **nəticələr**i ümumiləşdirməyə imkan verir.

Bəstəkar tərəfindən muğamlara yaradıcı yanaşma şifahi ənənəli musiqi irsinin qorunması və gələcək nəsillərə ötürülməsi məsələsinin həllinə, bəstəkar yaradıcılığında muğamdan istifadə üsullarının müəyyənləşdirilməsinə, eləcə də muğamlarla bağlı elmi-nəzəri tədqiqatların yaranmasına yol açdı. Muğamların bəstəkarlar tərəfindən nota yazılmasının müəyyən çətinlikləri və şərtilikləri mövcuddur. Mürəkkəb intonasiya əsasına və sərbəst metro-ritmik ölçüyə malik muğamları nota köçürmək bu gün də müasir musiqişünaslığın ən aktual məsələlərindən biri olaraq qalır.

Nota salınmış muğamları bəstəkarlar tərəfindən muğamların işlənilməsi kimi qəbul etmək olar. Belə ki, fortepianoda muğamların məhz bu tərtibatda ifa olunması onları özünəməxsus süitaya yaxınlaşdırır. Tofiq Quliyevin not yazısında muğamların tədris proqramına və ifaçılıq repertuarına daxil olunması fortepiano tədrisində mühüm elmi-təcrübi əhəmiyyətə malik olan dərs vəsaiti kimi dəyərləndirilə bilər.

T.Quliyevin yaradıcılığında xalq musiqisindən istifadə zamanı ilkin mənbəyə yaradıcı münasibət özünü qabarıq şəkildə göstərir. Bəstəkar xalq mahnı və rəqs melodiyalarının melodik intonasiya quruluşuna əsaslanaraq,

orijinal əsərlərini yaratmışdır. Azərbaycan xalq rəqslərinin bəstəkar yaradıcılığında işləmələrinin təhlilinin əsas məqsədi müqayisə olunan obyektlərin milli xüsusiyyətlərinin aşkarlanmasından, onların ilkin mənbədə və bəstəkar təxəyyülündə əks olunmasını, bəstəkarın yazı üslubunda nə kimi dəyişikliyə uğramasını müəyyənləşdirməkdən ibarətdir.

Bəstəkarın əsərlərindəki parlaq, ifadəli, zəngin melodiya öz əsasını xalq mahnı və rəqslərindən götürür. T.Quliyev zəngin melodiyalı Azərbaycan xalq musiqisinə peşəkar musiqi mədəniyyətinin nailiyyətlərini gətirmiş, milli musiqi dilini inkişaf etdirmiş, çoxsəslilik üsulları, rəngarəng harmoniya, ritmik xüsusiyyətlərlə zənginləşdirmişdir.

T.Quliyevin mahnılarının melodikası müasir kütləvi mahnının, estrada və caz musiqisinin xüsusiyyətlərini özündə daşıyır. Bununla belə, bu melodiyanın ən mühüm mənbəyi – xalq mahnısı və buna xas olan intonasiya, məqam və struktur cəhətləridir. Bu cür melodik struktur ümumi cəhətlərinə görə lirik xalq mahnılarına xas olsa da, burada xalq mənbələrinə münasibət yeni səviyyədə, bəstəkar təxəyyülünün məhsulu kimi üzə çıxır.

Bəstəkarın fortepiano əsərlərinin musiqi dili maraqlı xüsusiyyətlərə malikdir. Bu əsərlərdə melodik xəttin inkişafında mahnı intonasiyaları özünü büruzə verir ki, bu da bəstəkarın musiqi üslubunun başlıca cəhətlərindən biridir. Fortepiano pyeslərinin xalq rəqsləri ilə bağlı xüsusiyyətlərindən biri variasiyalılıq prinsipindən istifadə olunmasıdır.

T.Quliyevin musiqisində iki üslub xüsusiyyəti – dərin milli köklərlə bağlılıq və müasir musiqi dilinin sintezi diqqətəlayiqdir. Dissertasiyada təhlil olunmuş əsərlər – özündə janr və üslub baxımından vahid müəllif konsepsiyasını cəmləşdirir. T.Quliyevin yaradıcılığı timsalında müxtəlif səciyyəli obrazların təfsirində xalq musiqisinin rolu, həmçinin, xalq musiqisindən və muğamdan gələn inkişaf prinsipləri təqdirəlayiqdir. Burada bir tərəfdən, məqam-intonasiya əsasının, digər tərəfdən, quruluş xüsusiyyətlərinin mühüm cəhətləri ön plana çəkilir.

Beləliklə, tədqiqatda əldə etdiyimiz nəticələri yekunlaşdıraraq, qeyd edək ki, Tofiq Quliyevin yaradıcılığının kökləri milli musiqidən qaynaqlanır. Bəstəkarın milli musiqiyə münasibəti yaradıcı olmuşdur. Bu aspektdə məsələnin qoyuluşu ilə bəstəkarın yaradıcılığında milli musiqinin qanunauyğunluqlarının təzahürü məsələsi önə çıxır. Buna görə də bəstəkar yaradıcılığında bilavasitə milli musiqi mənbələrindən istifadə yollarının öyrənilməsi zəruri məsələ kimi həyata keçirilmişdir. Eyni zamanda, bu məsələnin araşdırılması xalq musiqisi və muğamlarla bəstəkar yaradıcılığının qarşılıqlı təsiri məsələləri ilə bağlıdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Tofiq Quliyev və Azərbaycan musiqisi. // "Mədəni-Maarif" jurnalı. Bakı, 2006, № 12, s. 25

2. Tofiq Quliyevin "Qaytağı" pyesinin musiqi dilinin xüsusiyyətləri. / "Aspirantların və gənc tədqiqatçıların XII Respublika elmi konfransının materialları". Bakı, 2008. s. 362 – 363.

3. Tofiq Quliyevin yaradıcılığının milli qaynaqları. // "Musiqi dünyası" jurnalı. Bakı, 2007, № 3 -4/ 33. s. 93 – 94.

4. Etnomusiqişünaslıq sahəsində Tofiq Quliyevin fəaliyyəti. /"Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" X Respublika elmi-praktiki konfransı. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2011. s. 54 – 56.

5. Xalq musiqi irsinin qorunmasında Tofiq Quliyevin rolu. / "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu" ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2012.

6. Tofiq Quliyevin etnomusiqişünaslıq sahəsində fəaliyyəti – muğamların ilk not yazıları. // "Elmi əsərlər" Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı – 2013, № 16. s. 140 – 144.

7. Tofiq Quliyevin fortepiano yaradıcılığının milli qaynaqları. // "Mədəniyyət dünyası". Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2013. s. 164 – 168.

8. Творческие традиции Тофика Кулиева. / Ассоциация музыкантов-исполнителей. Самара, 2017 http://apm-pearl.com/journal-2017-10-mamedova/

9. Фортепианные обработки Азербайджанских народных танцев Тофика Кулиева. // "Поиск". Международный научный журнал-приложение республики Казахстан. 2018. s. 41-44

10. Tofiq Quliyev tərəfindən nota salınmış Rast muğamının tədqiqi və tarixi əhəmiyyəti. // www.harmony.musigi-dunya.az, Bakı, 2018

**Севда Ахмед гызы Мамедова**

## «Национальные особенности в творчестве Тофика Кулиева»

## РЕЗЮМЕ

Диссертация посвящена изучению национальных особенностей в творчестве выдающегося азербайджанского композитора Тофика Кулиева, который, соединив в своей многосторонней творческой деятельности традиции национальной и мировой музыки, создал свой оригинальный творческий стиль. Т.Кулиев вошел в историю музыки как автор первых изданий нотных записей мугамов, а также многочисленных обработок народных песен и танцев, которые вошли в учебный репертуар пианистов. Синтез глубокого постижения закономерностей азербайджанской музыки устной традиции, т.е. музыкального фольклора, ашыгского творчества и искусства мугама, с индивидуальным подходом к их интерпретации, становится ведущим фактором национальной почвенности музыки Т.Кулиева.

Диссертация состоит из введения, 4-х глав, заключения, библиографии и сайтографии.

**I глава – «Роль Тофика Кулиева в сохранении национального музыкального наследия»** - состоит из трех разделов: **1.1. – «Обращение в творческом пути композитора Тофика Кулиева к национальным музыкальным истокам»; 1.2. – «Анализ нотной записи мугама «Раст» Т.Кулиева»; 1.3. – «Анализ нотной записи мугама «Забул» Т.Кулиева».**

**II глава** диссертации – **«Нотные записи и обработки народных песен и танцев Т.Кулиева».**

**III глава** диссертации – **«Национальные особенности музыкального языка вокальных произведений Т.Кулиева».**

**IV глава** диссертации – **«Ладово-мелодический анализ фортепианных произведений Т.Кулиева».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Sevda Ahmed Mammadova**

**“National peculiarities in the creative activities of Tofig Guliyev”**

## SUMMARY

The dissertation is ordained to the national peculiarities in the creative works of Tofig Guliyev, Azerbaijan outstanding composer, who composed own original creative style combining national and world music in his multifeature creative activities traditions. T.Guliyev took a part in the history of music as the author of the original edition of Mughams musical notation, including multitudinous treatment of folk songs and dances that were included to Pianists’ tutorial repertory.The synthesis of rooted regularity comprehension of oral traditional Azerbaijan music as musical folklores, ashug creativity and mugham art with individual attention to their expression is getting become the major factor of traditional foundation of Tofig Guliyev’s music.

The dissertation consists of introduction, 4 chapters, the conclusion and the bibliography.

In **Chapter I - "The Role of Tofig Guliyev in Preservation of National Musical Heritage"** - consists of three sections: **1.1. - "The appeal in the creative way of the composer Tofig Guliyev to national musical sources"; 1.2. - "Analysis of musical notation of mugam" Rast "by T. Guliyev"; 1.3. - "Analysis of musical notation of mugam" Zabul "by T. Guliyev".**

**II chapter** of the thesis - **"Music records and processing of folk songs and dances by T. Guliyev "**

**III chapter** of the dissertation - **"National features of the musical language of vocal works of T. Guliyev ".**

**IV chapter** of the thesis - **"The melodic analysis of piano works by T. Guliyev ".**

In **conclusion** is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 14.03.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**СЕВДА АХМЕД гызы МАМЕДОВА**

# НАЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ В ТВОРЧЕСТВЕ ТОФИКА КУЛИЕВА

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по искусствоведению**

**Баку – 2018**